# Xalqın müdrikliyi kritik məqamlarda daha aydın görünür

**Oldu ilə öldüyə əlac yoxdur - bunu müdrik atalarımız deyib!**

**Qəzavü-qədər qaçılmazdır - bu da xalqımızın əsrlərin sınağından çıxmış deyimlərindəndir!**

## Hadisə qəflətən olur

Deyilənlərin davamı olaraq daha bir zərb-məsəli yadınıza salmaq istəyirik: Allahı güldürmək istəyirsənsə, ona öz planlarından danış!

İndi isə yekunlaşdıraq: həyat təsadüfi, qaçılmaz, gözlənilməz, planlarımızda nəzərdə tutmadığımız, hətta ağlagəlməz hadisələrlə doludur! Xalqın müdrikliyi isə belə hallarda özünü itirməməyi, ruhdan düşüb bədbinliyə qapılmamağı, vəziyyətdən ağıllı çıxış yolu tapmağı, səbir və təmkin göstərməyi təlqin edir.

Doğrudan da əgər hadisə baş verdisə, bundan sonra başını itirməyə dəyərmi?

Artıq oldusa və olanı geri döndərmən mümkün deyilsə, ah-vayla nəyə nail olacaqsan?

Yaxud, gözlənilməz hadisə səni qəflətən yaxalayıbsa və bütün planlarını dəyişibsə, ağlaşma qurmalısan?

Bəli, Azərbaycan qəflətən bir müddətə işıqsız qaldı!

Heç kim bunu gözləmirdi və planlaşdırmırdı!

Faciə düzəltməyə dəyərmi?

Bax, bu halda Azərbaycan xalqının müdrikliyi bir daha özünü göstərdi!

İnsanlar baş verən qəzanı anlaşılan şəkildə qəbul etdilər!

Müvəqqəti çətinliyə alışdılar, dözdülər!

Haray-həşir qoparmadılar!

Belə xalqla qürur duymağa, fəxr etməyə dəyər!

Bəli, gözlənilməz nəsə oldu!

Çətindir!

Amma fəlakət deyil!

Çünki dövlətin həmişə sənin yanındadır!

## Dövlət başçısı dərhal reaksiya verdi

İşıqların sönməsinin rəsmi izahı belədir:

*"İyulun 2-dən 3-nə keçən gecə hava şəraitinin kəskin dərəcədə dəyişməsi, temperaturun yüksək həddə çatması nəticəsində əhalinin elektrik enerjisindən həddən artıq istifadə etməsi ilə əlaqədar Mingəçevir İstilik Elektrik Stansiyasının (İES) yarımstansiyasında cərəyan transformatoru sıradan çıxmışdır. Yarımstansiyada dərhal təmir bərpa işlərinə başlanmışdır".*

Hər şey açıq-aydın şəkildə göstərilib.

Dövlət başçısının da reaksiyası özünü gözlətmədi.

Prezident İlham Əliyev iyulun 3-də "Azərbaycan İstilik Elektrik Stansiyası" MMC-nin yarımstansiyalarından birində baş vermiş qəza ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında" sərəncam imzaladı.

Baş nazirin birinci müavininin sədrlik etdiyi komissiyaya energetika, daxili işlər və fövqəladə hallar nazirləri, habelə baş prokuror, DTX-nin rəisi, "Azərenerji" və "Azərişıq" səhmdar cəmiyyətlərinin rəhbərləri daxil ediliblər.

Komissiyanın qarşısına da konkret vəzifələr qoyulub: "Hadisənin baş verməsi səbəblərini araşdırsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

Üstəlik o da göstərilir ki:

- *qəzanın nəticələrinin aradan qaldırılması üçün təxirəsalınmaz tədbirlər müəyyənləşdirilsin;*
- *görülmüş işlər haqqında Azərbaycan Respublikasının Prezidentinə mütəmadi məlumat verilsin;*
- *Azərbaycan Respublikasının Baş Prokurorluğu baş vermiş hadisənin səbəblərinin araşdırılması və təqsirkar şəxslərin müəyyən edilərək məsuliyyətə cəlb edilməsi üçün Azərbaycan Respublikasının Daxili İşlər və Fövqəladə Hallar nazirlikləri ilə birlikdə təxirəsalınmaz istintaq tədbirlərini həyata keçirsin.*

Ən əsası, Prezident İlham Əliyev vəziyyətə nəzarəti öz üzərinə götürüb!

Bu, o deməkdir ki, məsələ qısa müddətdə, ədalətlə və obyektiv araşdırılacaq, qəzanın səbəbləri düzgün qiymətləndiriləcək, günahkarlar aşkara çıxarılarsa, cəzalarını alacaqlar!

Xalq öz Prezidentini sevir və ona inanır!

## Çətinliklər bəllidir

İsti yay günlərində elektrik enerjisinin verilişində fasilə yaranması arzuedilən hal deyil:

Soyuducu və kondisioner sönür, mənzillərə su verilişi dayanır, hətta televizor da işləmir!

Amma nə etməli? Oldu!

Metroda yaranan problemlər də müəyyən çətinliklər doğurur.

Hadisənin səbəblərinin dərhal heç nəyi gizlətmədən xalqa çatdırılması və yaranmış çətinliklərin aradan qaldırılması, hətta yüngülləşdirilməsi üçün təsirli, ardıcıl tədbirlər görülməsi insanlara təsəlli, ürək-dirək olmaqla bərabər, onların təmkinli davranmasına da kömək göstərdi.

Bütün imkanlar, belə hallar üçün nəzərdə tutulan ehtiyat variantlar işə salındı. Əgər irəlicədən ölkəmizdə vahid elektrik təchizatı sistemi yaradılmasaydı, bu gün qonşu dövlətlərdən yubanmadan elektrik enerjisi idxal edə bilməzdik!

Azərbaycan həmişə qonşu - dost ölkələrə çətin günlərində əl tutub, dayaq olub! İndi isə onlar müvəqqəti və qısamüddətli çətinliklərin dəfində bizə əl uzadırlar!

Müxtəlif mənbələr hesabına sutka ərzində mənzillərə fasilələrlə də olsa, su verilməsi təmin edilir. Beləliklə, insanlar həm ehtiyaclarını ödəyir, həm də su ehtiyatı yarada bilirlər!

Dünən axşam metro qatarları dayananda ölkə vətəndaşlarının bir qismi marşrut avtobusları ilə mənzil başına pulsuz çatdırıldı...

Hətta futbol üzrə dünya birinciliyinin növbəti oyunlarına da baxa bildik!

Əslində, baş verənlər xalqımız üçün daha bir sınaq oldu!

Çox şükür, bu sınaqdan da üzüağ çıxırıq!

Panikaya düşən, təmkinini itirən, bədbinliyə qapılan yoxdur!

Həm də "oldu ilə öldü"nün də bəzən çarəsi tapılır!

## Sosial şəbəkə fasiləsiz işləyir

Televizor işləməyəndə internet bizi evdə darıxmağa qoymur!

Bəli, informasiya əsridir!

Bütün günü əlimizdə mobil telefon var!

Danışanda danışır, danışmayanda isə internetə girərək hər cür yeniliklərlə tanış oluruq.

Çox maraqlıdır ki, kompüter və telefonlarımız enerjisiz qalmadı!

Fasiləsiz işlədi!

Vaxtında - vədəsində işıq yandı, batareyaları doldurduq!

Elə sosial şəbəkə də fasiləsiz işlədi!

Hər yerdən, hər şeydən xəbər tutduq!

Ən xoşagələn hal bu idi ki, sosial şəbəkə də hadisələrə əsasən təmkinli, anlaşılan formada yanaşdı. İnsanlar çətinliklərini bölüşərkən obyektivlik nümayiş etdirir, heç kimin gözləmədiyi və istəmədiyi "qəzavü-qədər" baş verdiyini söyləyirdilər.

Xalqın əsl müdrikliyi bu deməkdir!

İqtidarla xalqın fikir vəhdəti belə olur!

Xalq və iqtidar birliyinin Azərbaycanda yaranmış modeli (bunu başqa cür ifadə edə bilmədim) təbii fəlakətlər, gözlənilməz hadisələr zamanı da təmkinli yanaşmaya şərait yaradır!

Artıq çətinliklər arxadadır!

Qısa müddətli sınaqdan uğurla, səbirlə və xalqın müdrikliyi sayəsində birgə səylə çıxmağımızın xoş duyğuları isə hələ uzun müddət yaşayacaqdır!

**Bəxtiyar SADIQOV**

Azərbaycan.- 2018.-5 iyul.- S.1.